Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2020, **s. 10-16**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2020, **с. 10-16**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2020, **pp. 10-16**

ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

UOT 78.01:37.02

Jalə Qədimova
pedaqogika üzrə elmlər doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: jale.gadimova@mail.ru

MUSİQİ PEDAQOGİKASININ YENİ KULTUROLOJİ STATUSU

Açar sözlər: *musiqi pedaqogikası, təhsil, müasir elm, tarix*

Pedaqoji elm spesifik məqsədyönlü insan fəaliyyəti və onun obyektiv aləm qanunları haqqında sistemləşdirilmiş bilik şəklində çıxış edən məhsulu kimi araşdırılır və bunun nəticəsi olaraq, kəmiyyət və keyfiyyət baxımından müasir elmi həqiqəti səciyyələndirən bir sıra ümumi məqam ortaya çıxır.

Жаля Кадимова

НОВЫЙ КУЛЬТУРОЛОГИЧЕСКИЙ СТАТУС МУЗЫКАЛЬНОЙ ПЕДАГОГИКИ

Ключевые слова: *музыкальная педагогика, образование, современная наука, история*

Педагогическая наука исследуется как продукт специфической целенаправленной человеческой деятельности, выступающий в качестве систематизированных знаний о законах объективного мира и вследствие этого возникает ряд моментов, характеризующих современную научную действительность в количественном и качественном аспектах.

Jala Kadimova

NEW CULTURAL STATUS OF MUSICAL PEDAGOGY

Key words: *music pedagogy, education, modern science, history*

Pedagogical science is investigated as a product performed in the form of systemized knowledge about specific targeted human activity and his objective world laws and as a result of it, several general opportunities characterizing modern scientific truth from quality and quality point of view appear.

Musiqi pedaqogikası – özünün keyfiyyət əlamətlərinə, strukturunun, fəaliyyətinin və inkişafının daxili qanunauyğunluqlarına malik spesifik mədəni hadisədir: bununla yanaşı, o, insan fəaliyyətinin müəyyən sahələrində fəaliyyət göstərən digər ictimai hadisələrlə mürəkkəb əlaqə və münasibətlər şəbəkəsinə daxil olur.

Onun inkişafi sosial baxımdan determinasiya olunub və müxtəlif birbaşa və dolayı sosial-mədəni nəticələrə gətirib çıxarır. Musiqi pedaqogikasının problemləri və onların birbaşa həlli nəinki Azərbaycan humanitar elminin tarixi, həm də onun müasir vəziyyəti ilə bağlıdır.

Pedaqoji elmi spesifik məqsədyönlü insan fəaliyyəti və onun obyektiv aləm qanunları haqqında sistemləşdirilmiş bilik şəklində çıxış edən məhsulu kimi araşdırsaq, kəmiyyət və keyfiyyət baxımından müasir elmi həqiqəti səciyyələndirən bir sıra ümumi məqam tapmış olarıq. Onlardan biri – informasiya "partlayışı" – faktiki materialın funksional və sürətlə dəyişməsidir. Buna görə pedaqogikaya nəinki intellektual səviyyəni artırmağa, həm də yalnız yaradıcı şəxsiyyətin həll edə biləcəyi yaradıcılıq məsələləri sahəsini genişləndirməyə imkan verən yeni informasiya bloklarının daxil edilməsi perspektivi tamamilə təbiidir. Başqa sözlə desək, bu proses özü özünə yol açır. Buna görə də konkret həllər tələb olunur. Söhbət həm də inteqrasiya proseslərinin gücləndirilmiş olduğu elmi bilik sistemindən gedir.

Tarixi prosesin əsas ümumi qanunauyğunluqlarının müəyyən edilməsi, musiqi-tarixi prosesin müasir konsepsiyasının yaradılması, müxtəlif mədəniyyətlərdə musiqi dilinin müstəqilliyinin və onun semantikasının təşəkkül tapması amillərinin, ictimai idealların, dəyərlərin musiqinin inkişafında rolunun öyrənilməsi tələbələr tərəfindən qavranılması üçün mürəkkəb məsələlərdir. Müasir pedaqoji praktika materialın səviyyəsinin nə qədər yüksək olduğunu göstərir. Materialın çatdırılmasında peşəkarlıq və onun əsaslarının möhkəmliyi, şübhəsiz ki, fənnin özünə marağı, ona ciddi münasibəti təşkil edir.

Bir sıra hallarda obyektin dərindən öyrənilməsi onun bölünməsinə gətirib

çıxarır və nəticədə mövcud fənlər yeni fənlərin tətbiq edilməsi zərurətini yaradır. Digər hallarda mövcud kursların birləşməsi nəticəsində yeniləri yaranır. Adətən bu proses aralıq, interdissiplinar kursların yaranmasına gətirib çıxarır. İnteqrasiya müxtəlif elmlərin, metodların köməyi ilə faktoloji materialın kompleks öyrənilməsinin inkişafında, onların bir-birini zənginləşdirməsində və bir-birinə nüfuz etməsində, bunun əsasında tətbiq edilən universal qanunlara və metodlara malik elmi fənlərin yaranmasında özünü göstərir.

Müasir musiqi-pedaqoji prosesdə interdissiplinar kurslar adekvat, vahid, müxtəlif və fərqli obyektiv gerçəkliyin vahid elmi idrak sisteminin yaranmasına gətirib çıxarır.

Elmlər arasında interdissiplinar əlaqələrin inkişafının səbəblərindən biri, şübhəsiz ki, bütöv təhlilin birləşdirici rolundadır. Obyektə janr, mədəni, tarixi aspektə salınmış bədii hadisə kimi baxılması sənətin hüdudlarından kənara çıxmanı və bu sərhədlərin genişləndirilməsini tələb edirdi. Həyatın "sistemliliyi"nin dərk edilməsində müasir elmin çeşidli təcrübəsi musiqi pedaqogikası kimi sahəyə təsirsiz ötüşə bilməzdi. Şübhəsiz ki, musiqi pedaqogikası bütövlükdə digər elmlərdən, sənətşünaslıqdan çox dəyərli şeylər götürə bilər.

Azərbaycanda musiqi pedaqogikası tarixinin və nəzəriyyəsinin müasir aktual problemləri kontekst təhlillə birləşdirilib.

Müasir elmdə kontekst təhlil nə deməkdir və onu musiqi pedaqogikasında necə istifadə etmək olar? İlk növbədə, o, bədii faktın bir-birindən asılı olan əlaqələr sisteminə "maksimum" cəlb edilmə dərəcəsini göstərir. Burada sənətşünaslıq (oxu: elmi-pedaqoji) biliyinin humanitarlaşdırılması, onun sosiuma, yaxın incəsənət sahələrinə və bütövlükdə mədəniyyətə çıxışının genişləndirilməsi, "dar ixtisaslı mütəxəssislərin" izolyasionizm səylərindən daha səmərəli olur.

Bu, xüsusən də ona görə əhəmiyyətlidir ki, mədəniyyətin adekvat təhlili həm onun təməl əsaslarının tarixi köklərinin aşkara çıxarılması, həm də yeni mədəni törəmələrin genezisinin araşdırılması və onların inkişaf tendensiyalarının müəyyən edilməsi bağlıdır.

Fikrimizcə, interdissiplinar kurslar ideyasının mahiyyəti – tarixi və nəzəri fənlər silsiləsinin sinxronlaşdırılmasındadır. Bu kursların daxili dinamizmi ilk öncə materialla bağlıdır. Müasir musiqi pedaqogikasının aktual problemi – nəzəri və tarixi fənlərin ayrılmasındadır. Onların aradan qaldırılması yolunu biz xüsusi kursların yaradılmasında görürük.

Əlbəttə, musiqi nəzəriyyəsi və tarixinin ayrı-ayrı kurslara ayrılmasının metodoloji cəhətdən düzgünlüyü birmənalıdır. Bundan başqa, musiqi tarixinin bir üslubun digər üslubu ardıcıl əvəz etməsi kimi tədrisi müəyyən əlavələr tələb edir. Söhbət təkcə onların dil xüsusiyyətlərindən deyil, həm də üslubların bir-birini əvəz etməsi dövrlərinin öyrənilməsindən, onların əlaqələndirilməsindən və s. gedir.

Hələ iyirmi il bundan əvvəl qeyd olunmuşdur ki, "bir tərəfdən, ənənəvi

musiqi-nəzəri fənlərdə müəyyən edilmiş "texnika" bəstəkarların texnikası olmadı, çünki musiqi tarixinin mülkü olan üslublarla bağlı idi. Digər tərəfdən, keçmişin bəstəkarlarının tədrisində kristallaşmış ənənəvi musiqi-nəzəri fənlər musiqişünasların tədrisin əsası və musiqiçi-ifaçıların ümummusiqi hazırlığı silsilənin mühüm tərkib hissəsi olmaqla, indi öz təyinatını, bir növ, "ünvanını dəyişib".

Yaxşı məlumdur ki, Azərbaycan musiqisinin tarixi bizim proqramlarda birtərəfli inkişaf kimi göstərilmişdir. Fikrimizcə, musiqi ədəbiyyatına birtərəfli məlumat toplusu kimi baxan musiqi-pedaqoji fikrini, digər sahələrə, məsələn, ədəbiyyat və poeziyaya daxil olmaq hesabına bir qədər genişləndirmək lazımdır.

Bir misal gətirim: "Nəticələrin əldə edilməsini əngəlləyən bəzi hallara diqqət yetirək (pedaqoji proses nəzərdə tutulur). Onlardan biri tarixiliyin, tarixi və məntiqi dialektikanın bir qədər məhdud izahındadır. Həqiqətən, xronologiya, materialın dövrlər üzrə yerləşdirilməsi ilə məhdudlaşmır. Onun gücü – nəinki müəyyən dövrdə dilin sinxronik öyrənilməsi imkanında (leksik, qrammatik və fonetik tərəflərin vəhdəti kimi), həm də ayrı-ayrı dil hadisələrinin və onların cəminin hərtərəfli inkişaf xəttinin öyrənilməsini nəzərdə tutan diaxronik öyrənmə imkanındadır... Materialın dərk edilməsinin xronoloji yolu yüksək tarixi təfəkkürün tərbiyələndirilməsinə zəmanət vermir.

Təsadüfi deyil ki, son zamanlar bir çox müəlliflər daim tarixi fikrin ciddi qanazlığından şikayət edir. Ali məktəbdə musiqi tarixi çox zaman, ilk növbədə, ayrı-ayrı adlara, regionlara, ölkələrə və dövrlərə, artıq ikinci növbədə isə, hərtərəfli proseslərə və üslub tendensiyalarına həsr edilmiş monoqrafik mövzular silsiləsi kimi şərh olunur. Kursun nadir olmayan diskretliyi və dövrün real mənzərəsini natamam əks etməsi bundan irəli gəlir".

Beləliklə, mədəni potensialın mükəmməl inkişafı ilk növbədə intellektual səviyyənin genişləndirilməsi ilə bağlı olan musiqi təhsilinin humanitarlaşmasına kömək edir.

Biz, əlbəttə ki, bütün musiqi təhsilinin yenilənməsi məsələsini qaldırmırıq. Lakin deyilənləri nəzərə alaraq, ayrı-ayrı kursların yenilənməsinin zəruri olduğunu hesab edirik.

Musiqi pedaqogikasındakı bu mühüm rakursları nəzərə alaraq, müasir musiqi pedaqogikasının musiqi təhsilinin humanitarlaşdırılması ilə birbaşa bağlı olan mürəkkəb problemlərinin müəyyən həlli yollarını təklif edirik.

Beləliklə, musiqi-pedaqoji təhsil sisteminə interdissiplinar kursların daxil edilməsinin vacibliyi yuxarıda qeyd edilən bir çox amillərlə bağlıdır. Buraya bədii yaradıcılıq sistemində musiqinin xüsusi yerini şərtləndirən amilləri də əlavə edək:

a) Səsin təbiəti. Musiqinin semiotik, estetik, bədii xüsusiyyətlərinin spesifikası;

b) Səsin insanın mənəvi həyatının emosional tərəfi ilə əlaqəsi. Musiqi

intonasiyasının sinkretik musiqi-nitq fəaliyyətindən yaranması;

c) Musiqinin insan hissinin birbaşa ifadəsi kimi jestlə əlaqəsi.

Yuxarıda deyilənlərə əsaslanaraq, musiqinin interdissiplinar kurslar sistemində öyrənilməsi fənnin iki mərhələdə tədrisini nəzərdə tutur:

1. Musiqinin ümummədəni əhəmiyyətinin dünyanın universal mənzərəsində dərk edilməsi;
2. İncəsənət sistemində musiqinin spesifikasının müəyyən edilməsi.

Birinci mərhələdə musiqinin yaranmasının insanın ictimai varlıq kimi tarixi təkamülü ilə əlaqəsi açıqlanır. Qeyd edək ki, ibtidai insanın sinkretik utilitar-bədii fəaliyyətində spesifik emosional təsiri ilə əlaqədar musiqiyə mühüm yer ayrılmışdır. "....Musiqiyə çox böyük emosional hisslər xasdır ki, onları musiqili, intonasiya ilə ifa edilmiş fəlsəfə, yaxud musiqi intonasiyalarında bizə verilən əhval-ruhiyyə kimi ayırmaq olar".

Materialın araşdırılmasının ikinci mərhələsi musiqinin incəsənət sistemində həm ümumi, standart, həm də fərdi, xüsusi xüsusiyyətlərinin üzə çıxarılmasını nəzərdə tutur. Musiqi bütöv incəsənətə münasibətdə təyin edilmiş bütün sosial funksiyaları özündə daşıyır: kommunikativ, gerçəkliyin əks edilməsi, etik, estetik, qanunauyğun, evristik, idrak-maarifləndirici, nəhayət – ictimai-dəyişdirici. İnterdissiplinar kurslar kontekstində müqayisəli-tarixi və müqayisəli-tipoloji tədqiqat metodlarının modelləşdirilməsi məqsədəuyğundur. Sonuncu cəhət tədqiqat obyektlərinin empirik təsvirindən onların birgə tarixi və nəzəri yanaşmada ümumelmi dərkinə keçidi təmin edəcək.

Musiqinin bu aspektdə tədris edilməsi fərqli cəhəti növarası inteqrasiya və müxtəlif növ sənətlərin sintezi olan müasir bədii mədəniyyətdə onun rolu və yerini müəyyən etməyə xidmət edir.

Bu cür yanaşmanın aşağıdakı məqsədləri ola bilər:

1. İncəsənətə sistemli obyekt kimi kulturoloji yanaşmalar haqqında tərif vermək;
2. Musiqinin morfoloji xüsusiyyətlərinə keçməzdən əvvəl bütün incəsənət növləri üçün universal incəsənət funksiyalarını sadalamaq;
3. Musiqinin məna-məzmun spesifikası ilə yanaşı, onun digər incəsənət növləri ilə əlaqəsini müəyyənləşdirmək.

Beləliklə, musiqiyə, müasir cəmiyyətin mədəniyyətinin bütün sahələrinə daxil olan sənət kimi kompleks yanaşma yaranır. Bu cür yanaşma tələbələrin dünyagörüşünü xüsusi aspektdə formalaşdıra bilər: musiqi geniş və dərin idrak, ideoloji və estetik imkanlara malik incəsənət növü kimi xüsusi status qazanır, çünki musiqinin müasir bədii mədəniyyətdə lider mövqeyi danılmazdır.

Bədii həyatda müxtəlif incəsənət növlərinin mənalı üsullarının bir-birinə nüfuz etməsi, yəni bədii "hibridləşdirmə" musiqinin incəsənət növlərinin dinamikasında lider mövqeyini aşkara çıxartdı. Özünün spesifik emosional təsiri

sayəsində məhz musiqi humanist təsəvvürlərin və təzahürlərin vəhdətini yaratmaq üçün real imkana malikdir. Bütün deyilənlər musiqi pedaqogikasında interdissiplinar kursların formalaşmasında həlledici rol oynayır.

Musiqi pedaqogikasının yeni kulturoloji statusu, fikrimizcə, müasir dövrdə Azərbaycan musiqi tədrisi və tərbiyəsinin humanitarlaşdırılması probleminin həllində ən mühüm parametrlərdir. Burada hazırkı interdissiplinar əlaqə çərçivəsində dərk edilməsi vacib olan bir sıra məsələləri tezis şəklində təsvir edək:

1. Mədəniyyətin heterogen orqanizm kimi sistemli tədqiqatının evristik bütövlüyü;

İncəsənət obyektinin kulturoloji obyektə yaxınlığı;

2. Mədəniyyət bir-biri ilə bağlı komponentlər çoxluğu, onların birləşməsi kimi;

3. İncəsənət – üzvi sistemdir, müasir mədəniyyətin fəaliyyətdə olan modelidir.

4. İncəsənətin inkişafı və tam fenomenin yaranmasında nailiyyətlərin və itkilərin çoxölçülü dialektikası;

5. Mədəniyyət komponentləri kimi incəsənət növləri arasında sistem yaradan əlaqələr və münasibətlər;

6. Sistem üçün spesifik olan sintezin həyata keçirilməsi.

Struktur anlayışı, obyektlərin sistemlər (bu halda mədəniyyət) kimi təşkili, universal dilin yaradılması üsulları, cürbəcür sistemlərin bütün müxtəlifliyinin təsviri özünü mədəniyyətə sistemli-struktur yanaşmalarda reallaşdıra bilər. Mədəniyyətin interdissiplinar inteqrativ elmi anlayış kimi dərkinin təməli bundan ibarətdir.

Kulturoloji yanaşma incəsənətin spesifik xüsusiyyətlərinin, onun sintetik xarakterinin öyrənilməsinin açarı, ənənəvi etik, estetik, elmşünaslıq və digər tədqiqatların onların bu və ya digər (dövrün, üslubun və s.) bütöv mədəniyyət "modeli'nə münasibəti şüarı altında birləşməsi kimi musiqi sənətinin mənimsənilməsində və düzgün anlaşılmasında mühüm rol oynayır. Bununla bərabər, təsvir edilmiş nəzəri yanaşmanı tarixi yanaşma ilə birləşdirmək lazımdır. Burada ilk problem ənənə anlayışının tələbələrə izahı, yəni inkişaf edən bədii orqanizmin (musiqinin, ədəbiyyatın və s.) ardıcıl mərhələləri arasında müəyyən növ münasibətlərin izahı olacaq. Musiqinin ona mənəvi qida verən ənənələrə yanaşmasında seçiciliyindən danışdıqda, ənənənin dialektik mahiyyətini və onun müasir musiqidə yerini izah etmək, ənənənin ümummədəni məzmununu müəyyən etmək, obyektiv və subyektivin üzvi birləşməsini qeyd etmək lazımdır.

Məqalənin **elmi yeniliyi** olaraq müasir musiqi-pedaqoji prosesdə interdissiplinar kurslar adekvat, vahid, müxtəlif və fərqli obyektiv gerçəkliyin vahid elmi idrak sisteminin yaranmasına gətirib çıxarılması kimi baxılır.

Ədəbiyyat

1. Qədimova J.H. “Musiqi pedaqogikası: tarixilik və müasirlik”. Bakı, 2012
2. Qədimova J.H. "Musiqinin tədrisi metodikası". Bakı, 2007
3. Əmrahov M., Salahov M., Əsədov N. '"Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri". Bakı, 2007
4. Fətəliyev X., İsayev İ. “Pedaqoji irsimizdən”. Bakı, 1991
5. Məmmədov Ş. “Milli təhsilimizin fədailari” Bakı, 2004
6. Mahmudov M. "Baloniya prosesi və Azərbaycan". Bakı, 2008

Məqalənin redaksiyaya daxil olma tarixi: 21.05.2020
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 12.06.2020
Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2020
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Tamilla Kəngərli
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.